Azərbaycanın haqq savaşı xarici mətbuatda



Prezident İlham Əliyevin oktyabrın 20-də Azərbaycan xalqına müraciəti Türkiyənin kütləvi informasiya vasitələri tərəfindən geniş şəkildə yayılıb.

AZƏRTAC xəbər verir ki, Anadolu agentliyi, TRT Haber, TGRT, A Haber, Haber Global və digər telekanallar, eləcə də media portalları müraciəti canlı yayımla dünya ictimaiyyətinə çatdırıblar.

Prezident İlham Əliyevin çıxışındakı mühüm məqamlar, önəmli mesajlar ayrı-ayrı başlıqlarla yazılı şəkildə ekranlarda əksini tapıb.

❖ ❖ ❖

İtaliyanın çoxsaylı kütləvi informasiya vasitələri, o cümlədən nüfuzlu "Il Giornale" qəzeti, "Adnkronos" xəbər agentliyi, "Kmetro0", "Notizie Tiscali", "Notizie Yahoo", "Occhio Notizie", "Telenicosia", "Politicamente Corretto", "Agenzia Nova" və digər mətbuat orqanları Azərbaycanın bu ölkədəki səfiri Məmməd Əhmədzadənin Ermənistan silahlı qüvvələrinin Gəncə şəhərinə son raket hücumu və Azərbaycanın mülki əhalisinə qarşı törətdiyi müharibə cinayətləri ilə bağlı açıqlamasını dərc edib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan səfiri İtaliya hökumətini, parlament üzvlərini, siyasi partiyaları, kütləvi informasiya vasitələrini Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünə və mülki azərbaycanlı əhaliyə törətdiyi müharibə cinayətlərinə biganə qalmamağa çağırıb. Diplomat qeyd edib ki, erməni tərəfinin yalanlarına inananlar, işğalçının iddialarını kor-koranə dəstəkləyənlər Ermənistan silahlı qüvvələrinin Azərbaycanın ikinci ən böyük şəhəri olan Gəncədə ağır artilleriya silahları, raketlərin istifadəsi ilə dinc əhaliyə qarşı törətdiyi müharibə cinayətlərindən nəticə çıxarmalıdılar. M.Əhmədzadə qeyd edib ki, sentyabrın 27-dən başlayaraq Ermənistanın Azərbaycanın yaşayış məntəqələrinə raket hücumları nəticəsində 60 mülki azərbaycanlı qətlə yetirilib, 270 nəfərdən çox mülki şəxs yaralanıb.

Səfir, həmçinin vurğulayıb: "Qərəzlilik yetər! İkili standartlar yetər! Məsələyə ideoloji don geyindirmək yetər! "Xristian ermənilər" və "müsəlman azərbaycanlılar" kimi bölünmə yetər! Nəhayət, anlamaq lazımdır ki, bu münaqişənin din ilə heç bir əlaqəsi yoxdur! Anlamaq lazımdır ki, Ermənistan sülh istəmir! Anlamaq lazımdır ki, Ermənistan Azərbaycan torpaqlarının işğalını davam etdirmək istəyir. Anlamaq lazımdır ki, Ermənistan işğal etdiyi ərazilərdən qovduğu 1 milyondan çox azərbaycanlının öz doğma torpaqlarına qayıtmasını istəmir. Buna nail olmaq üçün də Ermənistan Azərbaycana qarşı yalan və saxtakarlıqlarla dolu propaqanda aparır".

Diplomat açıqlamasını bu fikirlərlə yekunlaşdırıb: "Əgər doğurdan da Ermənistan sülh istəyirsə, Azərbaycanın işğal olunmuş ərazilərindən öz silahlı qüvvələrini çıxarmalıdır. Çünki Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərində qalması bölgədə sülhə əsas təhdiddir".

❖ ❖ ❖

Misir saytları Azərbaycan Prezidenti İlham Əliyevin oktyabrın 20-də xalqa müraciətində Zəngilan şəhəri və ətraf kəndlərin erməni işğalından azad edildiyi barədə bəyanatını yayıb.

"Egyptonline", "Alwasela", "Rayetmisr", "Aldiplomasy" informasiya portalları AZƏRTAC-a istinadla dövlətimizin başçısının aşağıdakı sözlərini sitat gətirib: "Şanlı Azərbaycan Ordusu Zəngilan rayonu ərazisinə də daxil olub, girib və yaşayış məntəqələrinin azad olunması təmin edilib. Zəngilan rayonu ərazisində yerləşən yaşayış məntəqələrinin adlarını çəkirəm: Havalı kəndi, Zərnəli kəndi, Məmmədbəyli kəndi, Həkəri kəndi, Şərifan kəndi, Muğanlı kəndi və Zəngilan şəhəri! Zəngilan bizimdir! Qarabağ bizimdir!"

❖ ❖ ❖

İspaniyada böyük oxucu kütləsinə malik "La Razon" qəzetində Azərbaycanın bu ölkədəki səfiri Anar Məhərrəmovun "Qarabağ Azərbaycandır" sərlövhəli məqaləsi dərc olunub.

AZƏRTAC xəbər verir ki, məqalədə sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin atəşkəs rejimini kobud şəkildə pozaraq təmas xətti boyunca Azərbaycanın mövqelərini, mülki əhalisini iriçaplı silahlardan, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından atəşə tutmaqla ölkəmizə qarşı növbəti təcavüzə əl atdığı qeyd olunur.

Diqqətə çatdırılır ki, Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın ikinci ən böyük şəhəri olan Gəncə, sənaye şəhəri Mingəçevir, habelə Xızı və Abşeron rayonlarında əhalinin sıx məskunlaşdığı yaşayış məntəqələri, böyük əhəmiyyətə malik infrastrukturu Ermənistan ərazisindən, habelə işğal edilmiş ərazilərimizdən məqsədyönlü şəkildə raket atəşinə tutulur.

Bildirilir ki, Azərbaycan Silahlı Qüvvələri Ermənistanın növbəti hərbi təcavüzünün qarşısını almaq və təmas xətti boyunca sıx şəkildə yaşayan mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə özünümüdafiə hüququ çərçivəsində, həmçinin beynəlxalq humanitar hüquqa tam riayət etməklə əks-hücum və cavab tədbirləri həyata keçirir.

Oktyabrın 10-da Moskvada humanitar atəşkəslə bağlı razılaşmanın əldə olunmasına baxmayaraq, Ermənistan silahlı qüvvələri razılaşmanı kobud şəkildə pozmaqda davam etdiyi diqqətə çatdırılır. Qeyd olunur ki, Azərbaycanın ikinci ən böyük şəhəri olan və cəbhə bölgəsindən xeyli kənarda yerləşən Gəncə Ermənistan silahlı qüvvələri tərəfindən ballistik raket hücumuna məruz qalıb. Ermənistanın törətdiyi bu müharibə cinayəti nəticəsində aralarında azyaşlılar da olmaqla, mülki şəxslər qətlə yetirilib, bir sıra soydaşımız ağır bədən xəsarətləri alıb.

"Ermənistan silahlı qüvvələrinin humanitar atəşkəs razılaşmasından sonra da dinc insanları və şəhərləri atəşə tutması barbarlıq və insanlıq əleyhinə cinayətdir. Bu, bir daha onu nümayiş etdirir ki, Ermənistan münaqişənin siyasi həllində maraqlı deyil və Azərbaycana qarşı təcavüz siyasətini davam etdirmək məqsədini güdür", - deyə vurğulanan məqalədə, həmçinin bildirilib ki, Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasəti çərçivəsində dinc insanları, evləri, mülki obyektləri, tibb işçilərini məqsədli atəşə tutması ölkənin beynəlxalq hüququn prinsip və normalarına, o cümlədən beynəlxalq humanitar hüquq və Cenevrə konvensiyalarına, o cümlədən Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş ərazilərindən - Dağlıq Qarabağdan və ətraf yeddi rayondan dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinə məhəl qoymadığını, öz öhdəliklərini aşkarcasına pozduğunu, adi humanizm prinsiplərindən çox uzaq olduğunu növbəti dəfə nümayiş etdirir.

Azərbaycan tərəfi Ermənistanın bu təcavüzkar əməllərini qətiyyətlə pisləyərək, beynəlxalq ictimaiyyəti işğalçı Ermənistanı beynəlxalq hüquqa və öhdəliklərinə riayət etməyə məcbur etmək üçün qətiyyətli addımlar atmağa çağırır.

Müəllif bildirir ki, yaranmış vəziyyətə görə tam məsuliyyət Ermənistanın siyasi-hərbi rəhbərliyinin üzərinə düşür.

❖ ❖ ❖

Azərbaycanın ikinci böyük şəhəri Gəncəyə ermənilərin raket hücumu nəticəsində Azərbaycanın 13 dinc sakini, o cümlədən 3 uşaq ölüb.

AZƏRTAC xəbər verir ki, israilli məşhur jurnalist Neta Barın nüfuzlu ivritdilli "Israel HaYom" qəzetində dərc edilmiş "Azərbaycan: Ermənistan tərəfindən bombardlanma nəticəsində 13 nəfər həlak olub" sərlövhəli məqaləsi bu barədədir.

Müəllifin sözlərinə görə, Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev baş verənləri şərh edərək bildirib ki, Ermənistan terror siyasətini dövlət səviyyəsində davam etdirir.

Jurnalist qeyd edir ki, raket atəşi nəticəsində yaralananların sayı 50 nəfərdən çoxdur, şəhərin xəstəxanaları əhaliyə müraciət edərək, onları xəsarət alanlar üçün qan verməyə çağırıb.

"Skad" raketinin düşdüyü ərazidə yaşayış evlərinə ciddi ziyan dəyib. Bu, şəhərə ikinci raket hücumudur. Ötən həftə raket Gəncədə yaşayış binasına düşmüşdü, nəticədə 10 nəfər həlak olmuşdu", - deyə o əlavə edib.

"Israel HaYom" qəzeti yazır: "Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib: "Bir həftə bundan əvvəl və ondan əvvəlki günlərdə də Ermənistan silahlı qüvvələri Azərbaycanın ikinci böyük şəhəri olan Gəncəyə xaincəsinə hücum ediblər. Onlar bu məqsədlə raketlərdən, ilk növbədə, "Skad" raketindən istifadə edirlər. Bu dəfə də böyük dağıdıcı gücə malik olan "Skad" raketindən istifadə olundu. Mənfur düşmən dinc azərbaycanlı sakinlər arasında qırğın törətmək istəyir, o cümlədən Gəncə sakinləri arasında təşviş yaratmağa çalışır. Amma onlar məqsədlərinə heç vaxt nail ola bilməyəcəklər. Bu gün Azərbaycan xalqı Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan torpaqlarını işğaldan azad etmək əzmindədir".

Nəşrdə qeyd edilir ki, Avropa İttifaqı Azərbaycanın Gəncə şəhərinə oktyabrın 16-dan 17-nə keçən gecə dinc sakinlər arasında ölümə və ağır yaralanmaya səbəb olan raket zərbələri ilə bağlı təəssüfləndiyini bildirib.

"Azərbaycan Ordusu cəbhədə uğurlu hücumları davam etdirir və ölkə ərazilərini işğaldan azad edir. Azərbaycan Prezidenti Administrasiyasının bəyanatına görə Azərbaycan Ordusu 1990-cı illərin əvvəlində işğal edilmiş Füzuli şəhərinə daxil olub", - deyə Neta Bar qeyd edir.

❖ ❖ ❖

Çinin "Naewoeilbo" saytında Ermənistan silahlı qüvvələrinin humanitar atəşkəsi pozması ilə bağlı məlumat yayılıb.

AZƏRTAC xəbər verir ki, məlumatda Azərbaycanın humanizm prinsiplərinə əsaslanaraq xoş niyyət göstərib oktyabrın 18-də bir daha humanitar atəşkəsə razı olduğu bildirilir. Lakin Ermənistan silahlı qüvvələri humanitar atəşkəs elan edilməndən dərhal sonra - saat 00:02-də Cəbrayıl şəhərinə, eləcə də Cəbrayıl rayonunun işğaldan azad edilmiş kəndlərinə atəş açdı. Ermənistan daha sonra ağır artilleriyadan istifadə edərək iki ölkənin sərhədi boyunca Gədəbəy və Tovuz rayonları istiqamətində hücumlar etdilər. Səhər saat 7-yə qədər isə Ağdərə, Füzuli, Hadrut və Cəbrayıl istiqamətlərində hücumları davam etdirdilər. Ermənistanın artıq ikinci dəfədir ki, humanitar atəşkəsi pozması Azərbaycana qarşı işğalçılıq siyasətini davam etdirməsinin bariz sübutudur.

❖ ❖ ❖

Xorvatiyanın aparıcı KİV-ində, o cümlədən "Zagorje" onlayn portalında və "Zaqorski list" qəzetində Azərbaycanın Xorvatiyadakı səfirliyi tərəfindən hazırlanan məqalə dərc edilib.

AZƏRTAC xəbər verir ki, məqalədə Ermənistan silahlı qüvvələrinin Gəncə şəhərini raket atəşinə tutması, həlak olmuş günahsız insanlar və dağıntılar barədə məlumat verilib. Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələrinin hadisə yerinə səfər etdikləri, erməni vəhşiliyinin nəticələrini öz gözləri ilə gördükləri qeyd olunub.

Yazıda, həmçinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixi aspektləri, erməni tərəfinin iddia etdiyi guya Qarabağın zorla Azərbaycanın tərkibinə qatılması barədə yalanlar ifşa olunub.

Eyni zamanda münaqişənin hüquqi tərəfinə də toxunulub, BMT Təhlükəsizlik Şurasının qətnamələri, Cenevrə konvensiyalarının Ermənistan tərəfindən kobud şəkildə pozulması oxucuların diqqətinə çatdırılıb.

❖ ❖ ❖

Argentinada çıxan gündəlik "Clarin" qəzetinin internet-portalında "Azərbaycanın ikinci böyük şəhərinin raket atəşinə tutulması nəticəsində 12 nəfər həlak olub" sərlövhəli məqalə dərc edilib (bax: https://www.clarin.com/agencias/efe-12-muertos-ataque-cohetes-segunda-ciudad-azerbaiyana_0_1kY_W7nFt.html).

AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycanın Baş Prokurorluğunun məlumatına istinad edilir. Bildirilir ki, Azərbaycanın ikinci böyük şəhəri olan Gəncənin ermənilər tərəfindən ballistik raketlərdən atəşə tutulması nəticəsində azı 12 nəfər ölüb, 50-dən artıq insan yaralanıb.

Argentina nəşri diqqətə çatdırır ki, Gəncə gecəyarısı atəşə tutularkən Qərbdə "SCUD" kimi tanınan "Elbrus" taktiki ballistik raketlərdən istifadə olunub.

"Clarin" bildirir ki, Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev özünün rəsmi "Twitter" səhifəsində Gəncəyə hücumu "müharibə cinayəti" adlandırıb.

❖ ❖ ❖

Braziliyanın REBE TV kanalında Azərbaycana həsr edilmiş proqram efirə gedib.

Azərbaycanın Braziliyadakı səfirliyindən AZƏRTAC-a bildirilib ki, proqramda Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Hüseynov çıxış edərək, mərkəzin fəaliyyəti və Braziliya ilə əməkdaşlığa dair planları bölüşüb. Bildirilib ki, multikulturalizm Azərbaycanın dövlət siyasətidir və onun təmsil etdiyi qurumun bu modeli dünyanın bir çox ölkələrində, o cümlədən Braziliyada tədris edir.

Jurnalist Fabiana Seyhanın regionda baş verən proseslərlə bağlı sualını cavablandıran R.Hüseynov vurğulayıb ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi regionumuzda sülhün və multikulturalizmin ən böyük təhdididir və bəzi beynəlxalq dairələr bu münaqişəyə dini və yaxud etnik don geyindirməyə çalışırlar.

Qeyd olunub ki, Dağlıq Qarabağ münaqişənin arxasında əslində Ermənistanın ərazi iddiaları durur və bu təcavüzün nəticəsində otuz ildən artıqdır ki, torpaqlarımız işğal altındadır və bir milyona yaxın insan öz evlərini və torpaqlarını tərk etmək məcburiyyətində qalıb. Azərbaycanın mültikulturalizmin beşiyi olduğu və ölkəmizdə bir çox millətlərin və bütün dini konfessiyaların nümayəndələrinin sülh və dostluq şəraitində yaşadığı diqqətə çatdırılıb. Səfir Elxan Poluxov öz növbəsində bu silsilə proqramların izləyicilərinə öz dərin minnətdarlığını bildirərək, bu proqramlar vasitəsilə ölkələrimiz arasında mövcud olan əlaqələrin, demək olar ki, bütün sahələrin əhatə olunduğunu qeyd edib. Müsahibəsində E.Poluxov ermənilərin ölkəmizə qarşı başladığı yeni təcavüzündən danışaraq, Azərbaycanın beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanaraq öz torpaqlarını azad edəcəyini bildirib və Prezident İlham Əliyevin "Qarabağ - Azərbaycan. Nida!" şüarı ilə çıxışını bitirib.

❖ ❖ ❖

Misirin "Aldiplomasy" nəşrində AMEA Şərqşünaslıq İnstitutunun aparıcı elmi işçisi, fəlsəfə üzrə fəlsəfə doktoru Elvüsal Məmmədovun "XX əsrdə azərbaycanlıların Ermənistandan köçürülməsi siyasəti" sərlövhəli məqaləsi dərc edilib.

AZƏRTAC xəbər verir ki, məqalədə misirli oxucular Ermənistanın etnik təmizləmə siyasəti barədə məlumatlandırılır. Qeyd olunur ki, ərazilərimizi işğal edən və əslində özü də əzəli Azərbaycan torpaqlarında süni şəkildə yaradılan Ermənistan 1918-1921, 1948-1953 və 1988-1992-ci illərdə etnik təmizləmə siyasəti aparıb. Bu çirkin siyasət XX əsrdə azərbaycanlıların yaşadıqları 30 mindən çox evin yandırılması, 140 min dinc sakinin qətlə yetirilməsi, eyni zamanda, 750 mindən çox insanın Qərbi Azərbaycandan köçürülməsi ilə nəticələnib. 1988-ci ildə başlayan son etnik təmizləmə zamanı 220 min azərbaycanlı öd doğma yurdlarından didərgin salınıb. Ermənilər həmin ərazilərdə qəbiristanlıqları, tarixi-mədəniyyət abidələrini, məscidləri dağıdıb, barbarlıq aktları həyata keçiriblər.

Müəllif konkret faktlar və sənədlər əsasında Sovet İttifaqı dövründə azərbaycanlıların məhz Azərbaycan torpaqlarında yaradılan Ermənistan adlı dövlətdən köçürülməsi, şəhər, kənd və qəsəbələrin qədim adlarının dəyişdirilməsi, sonra isə ermənilərin bu mənfur siyasəti işğal etdikləri Azərbaycan ərazilərində XXI əsrdə də davam etdirməsi barədə geniş məlumat verir.

❖ ❖ ❖

Yalnız Malayziyada deyil, həmçinin Cənub-Şərqi Asiya regionunda çox nüfuzlu nəşrlərdən biri olan "New Straits Times" qəzeti oktyabrın 17-də Ermənistan silahlı qüvvələrinin Gəncə şəhərinə qarşı törətdiyi ballistik raket hücumu ilə əlaqədar məqalə dərc edib.

AZƏRTAC xəbər verir ki, "Azərbaycanın mülki əhalisi müharibə cinayətinin qurbanıdır" adlı məqalədə Ermənistan ordusunun mülki əhaliyə qarşı törətdiyi cinayətlə əlaqədar Azərbaycan Xarici İşlər Nazirliyinin həmin gün verdiyi bəyanatından bəhs olunub.

Məqalədə, həmçinin cari il sentyabrın 27-dən başlayaraq Ermənistanın ölkəmizə qarşı növbəti hərbi təxribatı barədə məlumat verilib. Qeyd edilib ki, Ermənistan silahlı qüvvələri qısa müddət ərzində Azərbaycanın ikinci böyük şəhəri olan və cəbhə xəttindən çox uzaqda yerləşən Gəncə şəhərinə sayca üçüncü dəhşətli raket hücumu edib. Bu hücum nəticəsində 13 nəfər həyatını itirib, 40-dan çox insan ciddi yaralanıb.

Qeyd edilib ki, beynəlxalq hüququn norma və prinsiplərini, o cümlədən beynəlxalq humanitar hüququn, eləcə də elan olunmuş humanitar atəşkəsin tələblərini kobud şəkildə pozaraq dinc insanların məqsədli şəkildə öldürülməsi müharibə cinayəti və insanlıq əleyhinə cinayətdir. Ermənistanın siyasi-hərbi rəhbərliyinin bu cinayətə görə tam məsuliyyət daşıdığı vurğulanıb.

Məqalənin sonunda bildirilib: "Terroru dövlət siyasətinə çevirən Ermənistanın siyasi-hərbi rəhbərliyi dinc əhalini raket atəşinə tutmaq qərarı verdiyinə görə məsuliyyət daşıyır. Azərbaycan Respublikası bəyan edir ki, milli və beynəlxalq hüquq mexanizmlərindən istifadə etməklə cinayətkarların ədalət mühakiməsinə cəlb edilməsi təmin olunacaq".

❖ ❖ ❖

Oktyabrın 18-də İndoneziyanın nüfuzlu kütləvi informasiya vasitələri Ermənistan ordusunun Azərbaycanın Gəncə və Mingəçevir şəhərlərini raket atəşinə tutması barədə xəbərlər yaymaqda davam edir.

AZƏRTAC xəbər verir ki, nüfuzlu "telusur.co.id" saytında oktyabrın 17-də Ermənistan silahlı qüvvələri tərəfindən Gəncə şəhərinin raket atəşinə tutulması ilə bağlı Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin bəyanatı əsasında xəbər yer alıb.

Xəbərdə oktyabrın 17-də gecə saat 1:00 radələrində Ermənistan ordusunun Azərbaycanın Gəncə şəhərini ballistik raket atəşinə tutduğu qeyd olunub. Yeni bombardmandan sonra Azərbaycanın ikinci böyük şəhəri olan və cəbhə xəttindən çox uzaqda yerləşən Gəncə şəhərinə sayca üçüncü hücum nəticəsində ikisi uşaq olmaqla 13 nəfərin həyatını itirdiyi, 40-dan çox insanın ciddi yaralandığı bildirilib.

Beynəlxalq hüququn norma və prinsipləri, o cümlədən beynəlxalq humanitar hüququn, eləcə də elan olunmuş humanitar atəşkəsi kobud şəkildə pozaraq dinc insanların məqsədli şəkildə öldürülməsinin müharibə cinayəti və insanlıq əleyhinə cinayət olduğu, Ermənistan rəhbərliyinin bu cinayətə görə tam məsuliyyət daşıdığı vurğulanıb.

Qeyd edilib ki, Ermənistanın davam edən təcavüzü və mülki insanlara qarşı qəddar hücumları dayandırılmalı və beynəlxalq ictimaiyyət Ermənistanın Azərbaycan xalqına qarşı bu qeyri-insani aktlarına göz yummamalıdır.

Ermənistanın Azərbaycanın mülki əhalisini hədəf alan bu mənfur hücumlarını şiddətlə qınandığı və işğalçı ölkədən müharibə cinayətlərinə son verməyin tələb edildiyi vurğulanıb.

Terroru dövlət siyasətinə çevirən Ermənistanın siyasi-hərbi rəhbərliyinin dinc əhalini raket atəşinə tutmaq qərarına görə məsuliyyət daşıdığı qeyd olunub. Azərbaycan Respublikasının milli və beynəlxalq hüquq mexanizmlərindən istifadə etməklə cinayətkarların ədalət mühakiməsinə cəlb edilməsinin təmin olunacağı bildirilib.

Məlumatda, o cümlədən Gəncənin raket atəşinə tutulması və dinc əhalinin hədəf alınmasına dair Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin öz "Twitter" hesabındakı paylaşmalara da yer verilib.

Bununla yanaşı, "m.cnnindonesia.com" və "kompas.com" saytlarında da "Azərbaycanın yaşayış məntəqələrinə raketlər atılıb", "Sakinlər yatarkən şəhər erməni raketinə məruz qaldı" başlıqlı xəbərlər yer alıb. Raketin gecə saatlarında atıldığı, insan tələfatının və yaralananların olduğu bildirilib. Bundan əvvəl də ermənilər tərəfindən Gəncəyə raket hücumunun həyata keçirildiyi, mülkü şəxslərin öldürüldüyü vurğulanıb.

Xəbərlərdə, o cümlədən Azərbaycanın Mingəçevir şəhərinin də ermənilər tərəfindən raket atəşinə məruz qaldığı haqqında məlumatlar yer alıb.

❖ ❖ ❖

Qətərin ərəb dilində nəşr olunan və ölkədə ərəb dilli qəzetlər arasında ən geniş oxucu kütləsinə malik "Əl-Şərq" qəzetində Ermənistanın oktyabrın 17-də Gəncə şəhərinin mülki əhalisini ballistik raket atəşinə tutması ilə bağlı yazı dərc olunub.

AZƏRTAC xəbər verir ki, yazıda hücum nəticəsində 2-si uşaq olmaqla 12 mülki şəxsin həyatını itirdiyi, 40 nəfərin yaralandığı, evlərə və digər mülki obyektlərə zərər dəydiyi qeyd edilib.

Məqalədə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin şəxsi "Twitter" hesabından etdiyi paylaşımlara istinadən bildirilib ki, Ermənistanın mülki əhalini atəşə tutması döyüş meydanında aldığı məğlubiyyətlər səbəbindəndir və məqsədyönlü şəkildə həyata keçirilmiş bu aktlar Ermənistanın acizliyinə dəlalət edir.

Yazıda dağılmış 20-dən çox mənzilin dağıntıları altından yaralıların və həlak olanların cəsədlərinin çıxarılması üçün axtarış və xilasetmə əməliyyatlarının davam etdiyi bildirilib, hadisənin təfərrüatları ilə bağlı ətraflı məlumat verilib.

❖ ❖ ❖

Səudiyyə Ərəbistanı Krallığının ingilis dilində nəşr olunan "Arab-news" qəzetində Azərbaycanın bu ölkədəki səfiri Şahin Abdullayevin "Ermənistan silahlı qüvvələri humanitar atəşkəsi pozur" sərlövhəli məqaləsi dərc edilib.

AZƏRTAC xəbər verir ki, məqalədə işğalçı Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Gəncə şəhərinə qarşı törətdiyi ballistik raket hücumu ilə əlaqədar Küveytin "Dasmannews" onlayn xəbərlər portalında və Küveytdə gündəlik ərəb dilində nəşr edilən "Əl-Ənbə" qəzetinin buraxılışında Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin bəyanatı, həmçinin Prezident İlham Əliyevin Füzuli şəhərinin və bir neçə kəndin işğaldan azad olunması ilə bağlı xalqa müraciəti barədə məlumat nəşr edilib.

AZƏRTAC-a bu barədə Azərbaycan Respublikasının Küveyt Dövlətindəki səfirliyindən məlumat verilib.

lərinin beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il Cenevrə konvensiyalarını və onların Əlavə protokollarını, habelə özlərinin israrlı xahişləri əsasında Moskvada keçirilmiş görüşün yekunu olaraq, razılaşdırılmış humanitar atəşkəs rejiminin tələblərini pozaraq Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla yaşayış məntəqələrini ağır artilleriyadan atəşə tutmağa davam etdiyi qeyd olunub.

Müəllif diqqətə çatdırıb ki, Azərbaycan və Ermənistan arasında humanitar atəşkəs əldə edildikdən sonra Ermənistan silahlı qüvvələri Azərbaycanın ikinci böyük şəhəri olan Gəncəni gecə saatlarında iki dəfə raket atəşinə tutması nəticəsində uşaq və qadınlar da daxil olmaqla çoxlu sayda mülki insan həlak olub, müxtəlif təyinatlı obyektlərə ziyan dəyib.

Məqalədə Ermənistan silahlı qüvvələrinin Ermənistanın hərbi-siyasi rəhbərliyinin atəşkəs çağırışlarının riyakarlıqdan başqa bir şey olmadığı, işğalçı ölkənin Azərbaycana qarşı təcavüzkar siyasəti çərçivəsində dinc insanların, evlərin, mülki obyektlərin, tibb işçilərinin məqsədli atəşə tutmasının beynəlxalq hüququn fundamental normalarına, o cümlədən beynəlxalq humanitar hüquqa və Cenevrə konvensiyalarına zidd olduğu vurğulanır. Eyni zamanda bu cinayətlər dövlət səviyyəsində terror siyasətinin təzahürüdür və Ermənistan xarici kütləvi informasiya vasitələrində, o cümlədən sosial şəbəkələrdə onları həyasızcasına pərdələməyə, həmin əməllərdən boyun qaçırmağa yönələn xəbərləri tirajlamaqla qanunsuz əməllərini təkzib etməyə cəhdlər göstərir.

Diplomatımız vurğulayıb ki, Ermənistanın öz çirkin əməllərini, terror cinayətlərini ört-basdır etmək cəhdləri fayda verməyəcək. Belə ki, yerli və xarici media nümayəndələrinin yaydığı foto və video görüntüləri ermənilərin növbəti yalanlarını ifşa edir.

❖ ❖ ❖

Ukraynanın aparıcı KİV Azərbaycan Silahlı Qüvvələrinin qədim Xudafərin körpüsünü işğalçılardan azad etməsi barədə materiallar yayıb.

AZƏRTAC xəbər verir ki, Ukrinform informasiya agentliyində, "QORDON", "Segodnya", "Korrespondent" portallarında dərc edilən məqalələrdə, "TSN", "Ukraina-24" telekanallarında yayımlanan reportajlarda Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin bununla bağlı özünün rəsmi "Twitter" səhifəsində yazdığı statusu qeyd edilib.

"Azərbaycan Silahlı Qüvvələri qədim Xudafərin körpüsünün üzərində Azərbaycan bayrağını qaldırdılar. Eşq olsun Azərbaycan xalqına! Qarabağ Azərbaycandır!", - deyə Ukrayna mətbuatı Azərbaycan Prezidentinə istinadla yazıb.

❖ ❖ ❖

Ermənistanın Azərbaycanın Gəncə şəhərini oktyabrın 17-də ballistik raket atəşinə tutması ilə əlaqədar Küveytin "Dasmannews" onlayn xəbərlər portalında və Küveytdə gündəlik ərəb dilində nəşr edilən "Əl-Ənbə" qəzetinin buraxılışında Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin bəyanatı, həmçinin Prezident İlham Əliyevin Füzuli şəhərinin və bir neçə kəndin işğaldan azad olunması ilə bağlı xalqa müraciəti barədə məlumat nəşr edilib.

AZƏRTAC-a bu barədə Azərbaycan Respublikasının Küveyt Dövlətindəki səfirliyindən məlumat verilib.